# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 6-cı səhifədə).

**Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər.**

**İlham Əliyev.**

Müvafiq olaraq Qəbələ rayonunun da nümayəndə heyəti Kann şəhərinə dəvət olunmuş, orada şəhər rəhbərliyi ilə müzakirələr aparılmış, hər iki ölkə arasında mövcud olan dostluq və ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsinə dair xartiya imzalanmışdır.

Eyni zamanda Belarus Respublikası Prezidentinin Azərbaycana səfəri zamanı Azərbaycanla Belarus arasında sənədlərin imzalanması mərasimi keçirilmişdir. Mərasimdə Qəbələ rayonu ilə Belarusun Qrodno şəhəri arasında da regionlararası əlaqələrin qurulması haqqında Saziş imzalanmışdır.

Eləcə də Stavropol vilayətinin Kislovodsk kurort şəhərində "Şəhər günü" münasibətilə təşkil olunan bayram tədbirlərində iştirak etmək üçün şəhər administrasiyası tərəfindən Qəbələ rayonunun nümayəndə heyəti Rusiya Federasiyasına dəvət olunmuşdur. Səfər zamanı Qəbələ ilə Kislovodsk kurort şəhəri arasında bütün sahələrdə, o cümlədən kənd təsərrüfatı, sənaye, mədəniyyət, turizm əlaqələrinin qurulması və qardaşlaşma barədə niyyət protokolu imzalanmışdır.

Hesabat ilində Özbəkistanın Səmərqənd vilayət hakiminin müavinləri, Özbəkistandakı Azərbaycan diaspor təşkilatının Səmərqənd vilayəti üzrə rəhbəri, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində ali nümayəndəsi, TÜRKSOY-un baş katibi, Ruminiya Respublikasının Azərbaycan Respublikasındakı səfiri, İsrail dövlətinin Azərbaycan Respublikasındakı səfiri, Meksikanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı səlahiyyətli səfiri və Ukrayna Respublikası Rovno Vilayət Dövlət Administrasiyasının rəhbəri Qəbələdə səfərdə olmuşdur.





Qəbələ IV Beynəlxalq Mürəbbə Festivalı.

**Hörmətli tədbir iştirakçıları!**

Hesabat ilində rayonumuzun səhiyyə müəssisələri də tibbi xidmət işlərini günün tələbləri səviyyəsində qurmuşlar. Rayon mərkəzi xəstəxanasında stasionar müalicə olunan xəstələrin sayı 2828 nəfər, cərrahi əməliyyatların sayı 119 olmuşdur. İl ərzində 1295 doğuş baş vermiş, poliklinika şöbəsinə 212979 nəfər ambulator müraciət etmişdir.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar üzrə 6544 nəfərdən il ərzində 4947 nəfər müayinəyə cəlb olunmuşdur. Müayinə olunanların 3165 nəfəri təhsil, 749 nəfəri səhiyyə işçiləri, 519 nəfəri otellərdə, 397 nəfəri Qəbələ konserv zavodunda, 117 nəfəri isə digər sahələrdə işləyən vətəndaşlardır.

Ölkə Prezidentinin tapşırığı əsasında Respublikada 18 yaşından yuxarı olan əhalinin 15 fevral tarixindən 2 may tarixədək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilmişdir. Müayinə olunan 67346 nəfərdən müayinələrin nəticəsinə görə 1752 nəfərə ambulator müalicə təyin edilmiş, 212 nəfər stasionar müalicəyə, 85 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış digər klinikalara göndərilmişdir.

Təcili yardım şöbəsində il ərzində çağrışların sayı 5947 olmuşdur.

Ötən müddət ərzində Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 21835, endoskopiya kabinetində müayinələrin sayı 1700, EKQ müayinələrinin sayı 4815, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 335, stasionar şöbəyə daxil olan xəstələrin sayı 1016 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 968 olmuşdur. Hemodializ şöbəsində 40 xəstədə 5399 hemodializ seansı aparılmışdır. Şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 17136, kompüter - tomoqrafik müayinələrin sayı 1485, rentgen müayinələrin sayı 19934, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 6538 olmuşdur. Kliniki laboratoriyada 9221 xəstədə 264057 müayinə aparılmışdır.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən 2016-cı il ərzində profilaktik peyvəndlərdən hepatit «B»-yə qarşı 1511, göyöskürək, difteriya və tetanusa qarşı 1511, qızılça, parotit, məxmərəyə qarşı 2978, poliomelitə qarşı 7136, difteriya və tetanus əleyhinə 1427 peyvənd edilmişdir.

Mərkəz tərəfindən rayon ərazisində yerləşən yaşayış məntəqələrində su təchizatı mənbələrinin mühafizəsi, tullantıların toplanması və daşınması diqqət mərkəzində saxlanılmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Cənab İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən rayonumuzda ilk peşə-ixtisas təhsili sisteminin formalaşdırılması və onun müasirləşdirilməsi istiqamətində təxirəsalınmaz işlər həyata keçirilir.

Qəbələ Peşə Məktəbində bu tədris ili üçün yeni pilot layihə kimi 3 ixtisas üzrə - aqroservis mütəxəssisi, bitkiçilik mütəxəssisi və heyvandarlıq mütəxəssisi peşələri üzrə şagird qəbulu aparılmışdır. Həmin ixtisaslar üzrə tədris prosesi modul təhsil proqramları əsasında keçirilir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzini cari ildə 171 nəfər məzun bitirmişdir. Onlardan 39 nəfər ümumi orta, 132 nəfər isə tam orta təhsil bazasındandır.

Şagirdlərin istehsalat təcrübəsinin təşkili və keçirilməsi məqsədi ilə sifarişçi təşkilatlarla ikitərəfli müqavilələr bağlanaraq onların hamısı istehsalat təcrübəsinə göndərilmişdir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzi tərəfindən ötən il ərzində 80 milli QHT ilə əməkdaşlıq edilmiş, vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirilmişdir.

Rayon uşaq və ailələrə dəstək mərkəzi sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində müvafiq işlər görmüş, xeyriyyə məqsədilə onların əl işlərindən ibarət satış sərgisi təşkil etmişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə avqust ayının 25-də xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan və təhsildə fərqlənən uşaqların ölkədə bir günlük istirahət və əyləncəsi təşkil olunmuşdur. Rayonumuzda bu məqsədlə həyata keçirilmiş əyləncəli istirahətə 40 nəfəri qəbələli olmaqla 200 nəfər uşaq qatılmışdır.

**Hörmətli tədbir iştirakçıları!**

Respublikamızda son illər aqrar sahədə müşahidə edilən inkişafın fonunda Qəbələ rayonunda da xeyli işlər görülmüşdür. Xüsusilə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına yardımların verilməsinə dair Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı bu sahənin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Cənab Prezidentin həmin sərəncamı kənd təsərrüfatı məhsullarının artımı üçün böyük stimul yaratmışdır. Bunun nəticəsidir ki, rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli dəyişikliklər hiss edilir.

(Ardı 8-ci səhifədə).